**“Pilot layihə çərçivəsində həkimlərin əmək haqlarına əlavələrin hesablanması və ödənilməsi Qaydaları”na dəyişikliklərin edilməsi haqqında**

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2017-ci il 04 avqust tarixli 128 nömrəli əmri ilə təsdiq edilmiş “Pilot layihə çərçivəsində həkimlərin əmək haqlarına əlavələrin hesablanması və ödənilməsi Qaydaları”na dəyişikliklərin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə”nin 15-ci hissəsini və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 06 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”nin 4.7.6-cı və 4.7.18-ci yarımbəndlərini rəhbər tutaraq

**əmr edirəm:**

1.“Pilot layihə çərçivəsində həkimlərin əmək haqlarına əlavələrin hesablanması və ödənilməsi Qaydaları”nda (bundan sonra - Qaydalar) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Qaydaların 2.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“ Şöbə rəhbəri vəzifəsi funksiyalarını yerinə yetirən həkimlərin iş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə onların mövcud əmək haqlarına əlavələrin məbləği bu Qaydaların 2.1-ci bəndində təsbit olunmuş qaydada stimullaşdırıcı əlavələrin verilməsi, habelə stimullaşdırıcı əlavələrin 15%-i həcmində artırılması (vergilər və digər tutulmalar daxil olmaqla), Ailə Sağlamlıq Mərkəzi şöbəsi rəhbərinin əmək haqqısına isə əlavə olaraq 540 manat (vergilər və digər tutulmalar daxil olmaqla) həcmində əlavələrin verilməsi yolu ilə müəyyənləşdirilir.”;

1.2. Qaydalara aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“ 2.2-1. Ailə Sağlamlıq Mərkəzi şöbəsinin bölmə rəhbərləri vəzifəsi funksiyalarını yerinə yetirən həkimlərin əmək haqları iş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə onların mövcud əmək haqlarına bu Qaydaların 2.1-ci bəndində təsbit olunmuş qaydada stimullaşdırıcı əlavələrin verilməsi, habelə stimullaşdırıcı əlavələrin 15%-i həcmində artırılması (vergilər və digər tutulmalar daxil olmaqla) yolu ilə müəyyənləşdirilir.”

2. Bu Qaydalara edilən dəyişiklərdə nəzərdə tutulmuş əlavələrin “Yevlax rayon Mərkəzi Xəstəxanası” və “Mingəçevir şəhər Mərkəzi Xəstəxanası” publik hüquqi şəxslərinin direktorları tərəfindən (İsmayılov Azər və Ələkbərov Könül) 02 aprel 2018-ci il tarixdən etibarən hesablanaraq, ödənilməsi tətbiq edilsin.

3. Agentliyin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbərinə (A.Əhmədova) tapşırılsın ki, Qaydalara bu əmrlə edilən dəyişikliklərin Agentliyin rəsmi internet saytında yerləşdirilməsi təmin edilsin.

4. “Yevlax rayon Mərkəzi Xəstəxanası” və “Mingəçevir şəhər Mərkəzi Xəstəxanası” publik hüquqi şəxslərinin direktorlarının (İsmayılov Azər və Ələkbərov Könül), Agentliyin Maliyyə departamentinin (Rasim Həsənov) və İnsan resurslarının idarəedilməsi və inkişafı departamentinin

(Günay Qasımova) bu əmrlə tanış edilməsi İnzibati departament tərəfindən (Elməddin Kazımov) icra edilsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**İdarə Heyətinin sədri** **Zaur Əliyev**